## Azərbaycan dili

1. Hansı sözlərdə “k” hərfi [k'] kimi tələffüz olunur?
   1. katolik 2. yiyəlik
   3. epik 4. analitik
   5. pişik
   A) 1, 3, 4 B) 1, 4, 5 C) 2, 4, 5
   D) 2, 3, 5 E) 1, 2, 3

2. Verilmiş xüsusiyyətlərin içində hansı üsluba aid xüsusiyyət ***yoxdur?***
   - Sözün poetik funksiyasından geniş istifadə edilir.
   - Kütləvi anlaşıqlılıq əsasdır.
   - Məntiqilik, dəqiqlik səciyyəvi xüsusiyyətlərindəndir.
   - Sərbəstlik və təbiilik əsasdır.

   A) bədii B) elmi C) rəsmi-işgüzar
   D) məişət E) publisistik

3. Verilmiş cümlələrdən hansında yazılışı ilə tələffüzü fərqlənən sözlər ***işlənməmişdir?***
   A) Jurnalın həm Azərbaycan, həm də bütün Qafqaz ərazisində böyük təsiri olmuşdur.
   B) Genetik modifikasiya olunmuş toxumlardan yetişən bitkilər kəskin hava şəraitinə davamlı olur.
   C) Şən mahnılar oxuya-oxuya, gözəl yeməklərdən yeyə-yeyə yuvasında dincəlirdi.
   D) Yay fəsli gələr-gəlməz qollarını çırmalayıb işə başladı.
   E) Göycəqarğalar yuvalarını adətən çay qırağında uçurum yerdə qurur.

4. Verilmiş nümunələrdən hansında fonetik normanın pozulma halı var?
   A) Yox, mənim əziyyətim bu balıq üçün hər şeyi dəyişəcək.
   B) Siz ki buralara çoxdan gəlmirsiz.
   C) Ağaclar yol boyunca düzülmüşdü.
   D) Mən həmin hadisə haqqında bir çox məlumat topladım.
   E) Səhər baş verən hadisə gözümün önündə dayanmışdı.

5. “*Fikirləşmədən, qeyri-ixtiyari bir sözü demək*” mənasında olan frazeoloji birləşmə hansı cümlədə işlənmişdir?
   A) Direktor ağzından qaçırmışdı ki, yoxlamağa gələnlərin niyyəti fərqlidir.
   B) Hər zaman yuxarı kürsülərdə söhbət zamanı sədrlə baş-başa gələrdi.
   C) Buradakıların artıq bu işdən canları boğazlarına yığılmışdı.
   D) Gələcək planlarla bağlı sözünü demək istəyəndə hər dəfə ağzından vururdular.
   E) İndi Fikrət üçün idarənin iclas otağında dar ağacı qurulmuşdu.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

6. Cümlədə fərqləndirilmiş sözlərdən hansı məcazi mənada ***işlənməmişdir?***
   A) Müştərinin bayaqdan qarpızları bir-bir ***sıxıb*** yoxlaması satıcını əsəbiləşdirdi.
   B) Gələnlərin gözlərindən ***oxudum*** ki, nəsə xoş bir hadisə üz verib.
   C) Alimlər yığışıblar ki, zəlzələnin ***hikmətlərini*** mümkün qədər öyrənsinlər.
   D) Bu boyda problemi həll eləmək ***uzun*** işdir, ona vaxtımız yoxdur.
   E) Xaçın çayından üzüaşağı əsən sərin külək Nəcəfalı kişini ***oxşadı***.

7. Hansı cümlədə ədəbi dilin iki norması pozulmuşdur?
   A) Bir çox insanlar belə fikirlərlə çətinliklə uyğunlaşırlar.
   B) Düşdü yenə aşağı mərtəbəyə.
   C) Şah Abbas yenə bu məsələdə çox narahat idi.
   D) Həmin oğlan sarsıldı qocanın bu sözündən.
   E) Hadisələr dayanırdı gözümün önündə.

8. Aşağıda xüsusiyyətləri verilmiş üslubu müəyyən edin.
   - Burada işlədilən feillər, adətən, əmr, xəbər, vacib və şərt şəklində olur.
   - Arxaik leksika və sintaktik konstruksiyalar uzun zaman mühafizə oluna bilir.
   - Obrazlı ifadələr, fərdi nitq ünsürləri işlədilmir.

   A) rəsmi-işgüzar B) elmi C) bədii
   D) publisistik E) məişət

9. *Qayğılar sığal çəkə könül adlı sazına,*
   *Naz satasan dünyaya, dünya dözə nazına.*
   *İnsan qibləyə dönə, durasan namazına,*
   *Sirrinə yaxşı sirdaş, qəlbinə həyan ola.* (Z.Yaqub)
   Nümunənin üslubuna məxsus səciyyəvi xüsusiyyətlərdən biri ***səhvdir:***
   A) Nəzmlə yazılmışdır.
   B) Metafor işlədilərək insana məxsus xüsusiyyət başqa bir varlığın üzərinə köçürülmüşdür.
   C) Obrazlılığa nail olunması üçün inversiya işlədilmişdir.
   D) Mübaliğəyə müraciət edilərək bədiilik artırılmışdır.
   E) Obrazlılıq və emosionallığa yer verilmişdir.

10. Hansı birləşməni yalnız məcazi mənada işlətmək mümkündür?
    A) yola düşmək
    B) işə düşmək
    C) əldən düşmək
    D) ayağından çəkmək
    E) burnunun ucu göynəmək

11. Sətirdən sətrə keçirmək üçün düzgün bölünmüş sözləri müəyyən edin.
1. təc-ri-det-mə 2. və-sa-it
3. ma-no-metr 4. kon-spekt
5. yü-zil-lik
A) 1, 4 B) 2, 4 C) 3, 5
D) 1, 5 E) 2, 3

12. *Acı yel üstümdən əsdikcə əsdi,*
*Yağan qar yolumu bağladı, kəsdi.*
*Gəl, məni bu qədər yandırma, bəsdi,*
*Mən ki nə Kərəməm, nə Lələ, dünya! (Z.Yaqub)*
Nümunə ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Nümunədə leksik mənası olmayan sözlər də işlədilmişdir.
B) Həqiqi və məcazi mənalı sözlərdən istifadə edilmişdir.
C) Omonimlik xüsusiyyətinə malik sözə rast gəlinir.
D) Qrammatik norma pozulmamışdır.
E) Fonetik norma pozulmamışdır.

13. Hansı nümunədə “boğaz” sözü terminoloji funksiyanı yerinə yetirir.
A) Durna bulağının dar şırranına söykənmiş balaca qırmızı sənəyin boğazından çıxan ağappaq su pıqqıldayır.
B) Berinq boğazı Asiyanın ən şərq nöqtəsi ilə Amerikanın ən qərb nöqtəsində yerləşir.
C) Əmniyyələr boğaz inəyi, keçini və qoyunları tövlədən çıxardılar
D) Yolçu sonra çəkmələrinin boğazını bir az yuxarı qaldırıb, sürətli addımlarla şəhərə tərəf yollandı.
E) Daşdəmir boğazını arıtlayıb yenidən söhbətə qoşuldu.

14. *Nə toxa bel bağla, nə aca söykən,*
*Nə şaha arxalan, nə taca söykən,*
*Özün basdırdığın ağaca söykən,*
*Bağbandan min dəfə bağ vəfalıymış.*
Verilmiş nümunənin təhlili ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Nümunədə frazeoloji birləşmə və onun şərhi, mənası işlənmişdir.
B) Bir-biri ilə antonim olan sözlər işlənmişdir.
C) Omonimlik xüsusiyyəti daşıyan söz işlənməmişdir.
D) Yalnız qrammatik mənası olan sözlər də var.
E) Məcazi və həqiqi mənalı sözlər işlənmişdir.

15. Müxtəlif samit hərflərin eyni səsi ifadə etdiyi cərgəni müəyyən edin.
A) dərdli, xarablıq, gəlinlik
B) kəndli, qovurmalıq, qorxaqlıq
C) hətta, səkkiz, doqquz
D) çökəklik, arxalıq, fərasətsiz
E) dayanıqlı, dişləmək, kamankeş

16. Verilmiş nümunələrdən hansında altından xətt çəkilmiş sözlər bir-biri ilə omonimdir?
A) Bəzən elə olur ki, düşündüklərin qarşına çıxır. – İndi sənin səhnən olacaq, get bəzən.
B) Şairin lirik şeirləri hamının diqqət mərkəzində idi. – Əsrin əvvəllərində yaşayan bu lirik Azərbaycan ədəbiyyatının əsas simalarındandır.
C) Şəhərin bu hissəsində küləklər güclü əsir. – Bu anda əsir nə edəcəyini, necə qurtulacağını düşünür, azadlığa can atırdı.
D) Çayın bir qolu olan bu hissə artıq çoxdan qurumuşdu. – Köynəyin qolu gözlədiyindən də uzun çıxmışdı.
E) Döyüşdə aldığı yara ona çətin anlar yaşatsa da, özünü itirmədi. – Çalış, öz xalqının işinə yara.

17. Aşağıda verilmiş cümlələrin hansında leksik norma pozulmuşdur?
A) Bunun nəticəsində planetimizin müasir quru və dəniz sərhədləri indiki görünüşünü alıb.
B) Atlantidanın qızıl əsrinin sonunda reyaktiv aviasiya sahəsi yüksək inkişafa çatmışdı.
C) Salman kişi bir gün buğda bostanının qırağında dayanıb nəsə düşünürdü.
D) Biz həmin vaxtdan sonra onun “Yaşıdlarım” romanını oxumağa başladıq.
E) Bugünkü tədbirdə Samir bəyi xeyli tənqid etdikləri barədə söz-söhbət yayıldı.

18. Publisistik üsluba aid fikirlədən biri ***səhvdir***:
A) Fərdi nitq təzahürlərinə bu üslubda rast gəlinə bilər.
B) Xalq dilinə yaxındır.
C) Mücərrəd obrazlılıqdan geniş istifadə edilir.
D) Lüğət tərkibi əksəriyyət tərəfindən anlaşılan sözlərdən ibarətdir.
E) Müxtəlif mövqe və maraqları əks etdirir.

19. Verilənlərdən hansı leksik normanın tələbidir?
A) Sözün mənasına bələd olmaq və düzgün yerində işlətmək.
B) Sözlərin düzgün yazı qaydalarına əsasən yazmaq.
C) Düzgün tələffüz qaydalarına əməl etmək
D) Sözlərin məcazi mənalarından istifadə etmək.
E) Sözlərə artırılan şəkilçilərin müəyyən edilmiş ardıcıllıqla artırılması

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam Kaspi

20. ***Uyğunsuzluğu*** müəyyən edin.

| | **söz** | **sinonimi** | **antonimi** |
|---|---|---|---|
| A) | tam | bütöv | yarımçıq |
| B) | qəliz | mürəkkəb | sadə |
| C) | çalışqanlıq | fəallıq | tənbəllik |
| D) | zorba | böyük | balaca |
| E) | ayaqüstü | tələsik | narahat |

21. "Məharətlə" sözünün fonetik xüsusiyyətlərinə aid ***olmayan*** fikri müəyyən edin?
A) Qalın, açıq sait uzun tələffüz olunur.
B) Qarşılığı olmayan 5 samit işlənmişdir.
C) Sözün hecalarından biri samitlə bitir.
D) Yazılışı və tələffüzü arasında 3 fərqli məqam var.
E) Kar-cingiltili samit cütlüyü işlənməmişdir.

22. Verilən cümlələrdən biri digərlərindən üslubuna görə fərqlənir.
A) Parklanma ilə bağlı paytaxt küçələri hazırlıq mərhələsinə gətirilir.
B) Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Sabir Kamal oğlu Hacıyev "Şöhrət" ordeni ilə təltif edilsin.
C) Parklanma yerlərində qiymətlərin müəyyən edilməsi üçün konsepsiya hazırlanıb və Nazirlər Kabinetinə təqdim edilib.
D) Niderland Kiyevə tədarük edəcəyinə söz verdiyi 24 ədəd F-16 qırıcısının ilk partiyasını təhvil verib.
E) Yeni Fərman və Sərəncamlarla ümumilikdə 660 min nəfərə yönələn sosial müavinət və təqaüdlərin artırılması təmin edilir.

### *Açıq tipli test sualları*

23. Verilmiş hansı məqamlar qrammatik normanın pozulma faktıdır?
1. Cümlədə mübtədanın xəbərdən sonra gəlməsi.
2. "Pərtlik" sözünün sonundakı samitin [y] kimi tələffüz edilməsi.
3. *"Fikir"* sözünə yönlük hal şəkilçisi artırıldıqda 3 hecalı formada yazılması.
4. Saylardan sonra isimlərin təkdə və cəmdə işlənmə qaydasının pozulması.
5. Sözə əvvəlcə mənsubiyyət, sonra hal, sonra da cəm şəkilçisinin artırılması.

24. Müxtəlif nitq hissəsinə aid omonimləri müəyyən edin.
1. yan 2. çən 3. dağ
4. kürü 5. qol 6. ağrı

25. Yazılışı ***səhv*** olan sözləri müəyyən edin.
1. hövsələ 2. şikaət 3. seriyal
4. sayğac 5. ehtiyat 6. maniken

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

t.me/BilikTeam Kaspi

26. Bütün sözlərə aid ortaq fikirləri müəyyən edin.
- ilahiyyat
- nəcabətli
- naümid

1. Saitlərdən biri uzun tələffüz edilir.
2. Dördhecalıdır.
3. Səsdüşümü hadisəsi var.
4. Cingiltili samit karlaşır.
5. Yazılışı və tələffüzü arasında bir fərqli məqam var.

27. Verilmiş sözlərin daşıdıqları leksik mənalarına əsasən uyğunluğu müəyyən edin.
1. dayanmaq
2. saxlamaq
3. ehtiyatlanmaq
a. dayaq olmaq, yıxılmağa, uçmağa qoymamaq.
b. Dözmək, tab gətirmək
c. Hərəkətini kəsmək, dayandırmaq, əyləmək.
d. çəkinmək, ürək eləməmək.
e. Rast gəlmək, rastlaşmaq.

***Mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları cavablandırın.***

### *"Dəbistan" jurnalı*

Hər bir xalqın inkişafının təməli uşaqlardan başlayır. Bu məqsədlə Azərbaycan ziyalıları uşaq jurnalları açmaq üçün dəfələrlə səy göstərmişdilər.

Müəyyən vaxtlarda "Çıraq" qəzeti, "Sovqat", "Nübar" jurnallarının açılması baş tutmasa da, lakin ziyalılar amallarından geri dönmədilər. Nəhayət, 1906-cı il 16 aprel tarixində "Dəbistan" jurnalı fəaliyyətə başladı. Bununla da Azərbaycanda ............................... . Naşir və redaktorlar Əliisgəndər Cəfərzadə və Məhəmmədhəsən Əfəndizadə idi. Jurnal Bakıda H.Z.Tağıyevin "Kaspi" mətbəəsində çap olunurdu. Jurnalda xarici dillərdən tərcümə olunmuş nağıl və hekayələr, lətifələr, tapmacalar, oyunlar, tarixi hekayələr və s. bölmələr yer alırdı.

"Dəbistan" jurnalının əsas məqsədi uşaqların asudə vaxtlarını səmərəli istifadə etmələri, onların dünyagörüşünün artırılaraq tərəqqiyə nail olmaq idi. Uşaqların vətənpərvərlik ruhunda, vətən sevgisi ilə böyümələrini təmin etmək də jurnalın əsas məqsədlərindən idi.

Təəssüf ki, maddi sıxıntılar səbəbi ilə jurnal bağlanmaq məcburiyyətində qaldı. M.Ə.Sabir "Qapandı" şeirini "Dəbistan" jurnalının bağlanmasına həsr etmişdir.

Fəaliyyət göstərdiyi müddət ərzində "Dəbistan" jurnalı uşaq mətbuatımızda unudulmaz iz qoydu.

28. Mətndə bir-biri ilə qarşılıq təşkil edən sözlər işlənmişdir. Həmin sözləri qarşılıqları ilə birlikdə cədvələ qeyd edin.

| | *Söz* | *Onun qarşılığı* |
|---|---|---|
| 1. | | |
| 2. | | |

29. Mətndə nöqtələr qoyulmuş cümləni mətnin məzmununa uyğun olaraq tamamlayın.

_______________________________________________
_______________________________________________
_______________________________________________

30. Əsas mətnlə çərçivə daxilindəki mətni məzmununa əsasən müqayisə edərək Eyler-Venn diaqramına fikirlər yazın.

Azərbaycanda ilk şəkilli jurnal "Molla Nəsrəddin" olmuşdur. "Molla Nəsrəddin"in birinci sayı 1906-cı ilin aprel ayında Tiflisdə işıq üzü görüb. Jurnal sonralar Təbrizdə, Bakıda nəşr edilib.

Molla Nəsrəddinçilər xalqı öz hüquqları uğrunda mübarizəyə çağırır, bu işdə xalqın haqqını tapdalayanlara, qanunsuz işlərlə məşğul olan məmurlara qarşı birgə mübarizəsinin vacibliyini önə çəkirdi.

Molla Nəsrəddin"in tənqid hədəfi çox geniş idi. Amerika-İngiltərə imperialistlərindən, rus çarizmindən, İran və Türkiyə despotlarından tutmuş, adi tüfeyliyə qədər "Molla Nəsrəddin"in hədəfi olmuşdur.




Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

## Tarix

31. İbtidai icma quruluşunun e.ə III minilliyin axırlarından başlayan dövrü üçün xarakterikdir:
A) Təsərrüfatda kişi əməyinin ön plana keçməsi
B) Köçmə maldarlığın meydana gəlməsi
C) Əmlak və sosial bərabərsizliyin artması
D) Qarabağın dağlıq hissəsində zəngin mis yataqlarının aşkarlanması
E) Ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə olunması

32. Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Azərbaycan torpaqlarının Əhəməni imperiyasının tərkibində olması
b. Ekbatan şəhərinin II Kirin əmri ilə qarət edilməsi
c. Midiyada İskit ağalığının sona çatması
d. Əhəməni hökmdarlarının məğlubiyyəti ilə nəticələnən döyüşlərin baş verməsi
e. Əhəmənilərin Makedoniyalı İskəndər tərəfindən məğlub edilməsi
A) 1-c; 2-a,e; 3-d,e
B) 1-a,d; 2-c; 3-b
C) 1-b,c; 2-a; 3-d
D) 1-b; 2-e; 3-a,d
E) 1-e; 2-a,b; 3-d

T.me/BirikTeam1 kaspi

33. Xəritədə ştrixlənmiş ərazinin e.ə VI əsrinə aid xüsusiyyətləri müəyyən edin:



1. Əhalinin üsyanı nəticəsində tiranlığa son qoyulması
2. Borca görə köləliyə düşmüş əhalinin azad edilməsi
3. İlk Olimpiya yarışlarının keçirilməyə başlaması
4. Xalq tribunlarının seçilməyə başlaması
5. Respublika idarə üsulunun qurulması

A) 1,3,5  B) 1,2  C) 2,5
D) 1,3  E) 1,4,5

34. Mezolit və Erkən Tunc dövrləri arasındakı dövrlər üçün xarakterik ***deyil**:*

A) İnsanların qan qohumluğu əsasında birləşməsi
B) Toxa əkinçiliyinin inkişaf etməsi
C) İstehlak təsərrüfatının mövcud olması
D) Mingəçevir yaxınlığında Qaraca abidəsi
E) Sənət sahələrinin inkişaf etməsi

35. 1847 və 1870-ci il kəndli əsasnamələri üçün ümumi cəhət ***deyil**:*

A) Sahibkar kəndlilərinə şamil edilirdi
B) Kəndli pay torpağını satın alıb şəxsi mülkiyyətinə çevirə bilərdi
C) Əsasnamədə torpaq mülkiyyəti, vergi və mükəlləfiyyətlərə aid məsələlər nəzərdə tutulmuşdu
D) Hər bir kəndliyə 5 desyatin yararlı torpaq verilirdi
E) Kəndli malcəhət vergisi ödəməli idi

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

36. Verilən xüsusiyyətlərin aid olduğu ərazini müəyyən edin:

*- Dünya tarixinin ilk imperiyası burada yaranmışdı*
*- Tarixdə ilk yazılı qanunlar yaradılmışdı*




A) 1  B) 2  C) 3  D) 4  E) 5

37. Akkad imperiyasının mövcud olduğu dövrə aiddir:

A) Təkərin ixtira edilməsi
B) Şumerdə ilk şəhərlərin yaranması
C) Aşağı və Yuxarı Misir dövlətlərinin yaranması
D) Misirin zəifləyərək ayrı-ayrı hissələrə parçalanması
E) Mesopotamiyanın Kutilərin hücumlarına məruz qalması

38. Artabazd və Ariobarzanın fəaliyyəti üçün oxşar cəhətdir:

A) Midiya dövlətinin idarə edilməsi
B) Oktavian ilə diplomatik əlaqələrin mövcud olması
C) Arşakilər sülaləsinə mənsub olmaları
D) Roma qoşunlarının məğlub edilməsi
E) Selevkilərdən asılı vəziyyətə düşmələri

39. Uyğunluğu müəyyən edin:




A) 2,4,5  B) 1,2,3  C) 1,3,6  D) 2,4,6  E) 1,4,6

40.Albaniya əhalisi üçün xarakterik *deyil:*
1. Latın və yunan yazısı ilə tanış idi
2. Zevs, Helios, Selena tanrılarına sitayiş edirdilər
3. Kirəmitdən istifadə edilirdi
4. Məzdəkilər hərəkatının güclü hərəkətverici qüvvəsi sayılırdı
5. Əsas hissəsi Fanaaspa və Aqnazana şəhərlərində yaşayırdı.

A) 1,2 B) 1,4 C) 4,5 D) 3,5 E) 2,5

41.Hadisələri Albaniyanın paytaxt şəhərlərinin fəaliyyət göstərdiyi dövrə uyğunlaşdırın:
1. Qəbələ
2. Bərdə

a. Xristianlığın rəsmi dövlət dini elan edilməsi
b. Albaniyanın sasani mərzbanları tərəfindən idarə olunmağa başlaması
c. Sasanilərə qarşı azadlıq hərəkatının baş verməsi
d. Sasani-alban qoşunlarının Amid döyüşündə qalib gəlməsi

A) 1-a; 2-b,d B) 1-c,d; 2-a,b
C) 1-b,c; 2-a,d D) 1-b,d; 2-c
E) 1-a,d; 2- c,b

42.Eyni ildə baş vermişdir:
1. Xanabad manufakturasının fəaliyyətə başlaması
2. Rəhdar rüsumunun ləğv edilməsi
3. Rus kəndlilərinin Şimali Azərbaycana köçürülməsi haqqında fərman verilməsi
4. Alban katalikosluğunun ləğv edilməsi

A) 1,3 B) 2,4 C) 2,3 D) 1,4 E) 3,4

43.Mannanın e.ə VIII əsrin birinci yarısı və ikinci yarısı üçün oxşarlığı müəyyən edin:
A) Urartunun Mannaya yürüşlərinin baş verməsi
B) Mərkəzləşdirilmiş dövlət kimi fəaliyyət göstərməsi
C) Manna ərazilərinin I Rusa tərəfindən ələ keçirilməsi
D) Aşşurbanipalın yürüşlərinə məruz qalması
E) İranzunun düşməndən azad edilmiş vilayətləri Mannanın tərkibinə qaytarması

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

44.1840-cı il 10 aprel inzibati məhkəmə islahat layihəsinə əsasən yaradılan Xəzər vilayətinə daxil olmayan əraziləri müəyyən edin:




A) 3,7,8 B) 2,4,6 C) 2,3,4
D) 1,5,6 E) 3,4,7

45.Neolit dövrünə aiddir:
1. Əhalinin böyük bir hissəsinin oturaq həyata keçməsi
2. Rabitəli nitqin meydana gəlməsi
3. Torpağın toxa ilə yumşaldılması
4. Çaxmaqdaşı və dəvəgözü daşından hazırlanmış alətlərdən istifadə
5. İstehsal təsərrüfatına keçidin əsasının qoyulması

A) 1,2,3 B) 3,4,5 C) 2,4,5
D) 1,2,4 E) 1,3,4

46.1-ci və 2-ci mətndə bəhs edilən hökmdarlar üçün ümumi cəhəti müəyyən edin:

**Mətn 1**
Mauriya sülaləsinin ən qüdrətli hökmdarı bir sıra sahələrdə islahatlar aparmışdı. Ölkənin müxtəlif səmtlərində 33 kitabı qoydurmuş və tarixdə buddizmin əsas himayədarı və təbliğatçısı kimi yadda qalmışdı.

**Mətn 2**
Mərkəzi hakimiyyəti möhkəmləndirmiş, ordu islahatı keçirmişdi. Fit səsi çıxaran oxların düzəldilməsi də onun adı ilə bağlıdır. Ordu onluq, yüzlük, minlik və onminlik dəstələr şəklində təşkil edilmiş, nizam-intizam yaradılmışdı.

1. Sin sülaləsinə mənsub olmaları
2. Hun ordusunun məğlub edilməsi
3. E.ə III əsrdə vahid dövlətin əsasının qoyulması
4. Eyni əsrdə hakimiyyətdə olmaları

A) Yalnız 1 B) 3 və 4 C) yalnız 4
D) 1 və 3 E) 1 və 4

47.Çinin e.ə II minillik tarixi üçün xarakterikdir:
A) Koreya və Vyetnamın işğal edilməsi
B) Sin padşahının ölkəni vahid dövlətdə birləşdirməsi
C) Yazının-heroqliflərin meydana gəlməsi
D) Dəmir emalının başlanması
E) "Vuruşan padşahlıqlar dövrü"

48.Periklin fəaliyyətinə aid ***deyil***:
A) Afina vətəndaşlarının idarəetmədə iştirakının genişlənməsi
B) Hər bir vətəndaşın dövlət idarəçiliyində istənilən vəzifəni tuta bilməsi
C) Quldarlıq demokratiyasının çiçəklənməsi
D) 15 il ərzində strateq seçilməsi
E) Afina dəniz ittifaqının yaradılması

49.Səbəb – nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Səbəblər | Nəticələr |
|---|---|---|
| 1 | Kiçin Asiyadakı yunan şəhərlərinin Əhəmənilərə qarşı üsyanına Afina tərəfindən kömək edilməsi | I Daranın Yunanıstana hücumu |
| 2 | E.ə V əsrdə Afinada demokratiyanın bərqərar olması | Afina şəhərinin elm mərkəzinə çevrilməsi |
| 3 | Yunan şəhər-dövlətləri arasında müharibələrin baş verməsi | Makedoniya dövlətinin zəifləməsi |
| 4 | E.ə II minillikdə Balkan yarımadasının cənubunda vulkan püskürməsi | Mikena sivilizasiyasının dağılması |
| 5 | Əkin sahələrinin azlığı, əhalinin sayının artması, ticarətin inkişaf etməsi | Yunanların bir hissəsinin vətənlərini tərk edərək uzaq ölkələrdə məskunlaşaması |

A) 1,2,5 B) 1,3,4 C) 3,4,5
D) 1,2,3 E) 1,2,4

50.Uyğunluğu müəyyən edin:

Qədim Roma

| 1. Respublika dövrü | 2. İmperiya dövrü |
|---|---|
| **a.** Sezarın diktator elan olunması | **a.** Senatın səlahiyyətlərinin məhdudlaşdırılması |
| **b.** Germanların Romaya yürüşlərinin genişlənməsi | **b.** 12 lövhə qanunlarının qəbul edilməsi |
| **c.** Makedoniya və Yunanıstanın işğalı | **c.** Qulların öldürülməsinin qadağan edilməsi |

A) 1-a; 2-b,c B) 1-c; 2-a,b
C) 1-b,c; 2-a D) 1-a,c; 2-a,c
E) 1-a,c; 2-b,c

51.Roma poeziyasının "qızıl dövrü" hesab edilən əsrlərə uyğun gəlmir:
A) Roma imperiyasının qərb və şərq hissələrə bölünməsi
B) Qay Yuli Sezarın Romaya yürüşü
C) Misirin Romanın əyalətinə çevrilməsi
D) Kapuyadakı qladiator məktəbində qulların qiyamı
E) Sərkərdələr arasında vətəndaş müharibəsinin baş verməsi

52.Göstərilən xüsusiyyətlər aiddir:
- *Romanın ən əzəmətli binaların biri idi*
- *Burada Qladiator döyüşləri keçirilirdi*

A) Parfenon məbədi
B) Zəfər tağları
C) Kolizey amfitetrı
D) Panteon məbədi
E) Baş meydan Aqora

53.Pinçen döyüşündən sonra baş vermiş hadisələri müəyyən edin:
1. Mauriya sülaləsinə son qoyulması
2. Qərbi Hun dövlətinin süqutu
3. "Qırmızıqaşlılar üsyanı"
4. Çin səddinin tikintisinin başlanması
5. Hindistanın şimal-qərbinin Əhəməni tabeçiliyinə keçməsi

54.Xronoloji ardıcıllığı müəyyən edin:
1. III Vaçaqanın fəaliyyətinin sona çatması
2. Mihranilər süalaləsinin hakimiyyətə gəlməsi
3. I Xosrov Ənuşirəvanın islahat keçirməsi
4. Mani təliminin əsasının qoyulması

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam_Kaspi

55.Misirin e.ə II minillik tarixinə aid xüsusiyyətləri müəyyən edin:
1. İlk yazının yaranması
2. Fələstin və Suriyanın işğal edilməsi
3. Pilləkən formalı ilk piramidanın tikilməsi
4. Suriya uğrunda Het dövləti ilə mübarizə aparılması
5. Fiv şəhərinin paytaxta çevrilməsi

56.Hadisə və nəticə əlaqələrinin doğru göstərildiyi cavabları müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Kutiərin Mesopotamiyada idarəçilyi yerli məmurlara həvalə etməsi | Kutilərin mövqeyinin zəifləməsi |
| 2 | Assurlar ilə Turukkilər arasında toqquşma | Şuşarra vilayətinin turukkilərin əlinə keçməsi |
| 3 | Assuriya hökmdarı III Salmanasarın Manna ərazisinə yürüşü | Sirdakka müqaviləsinin imzalanması |
| 4 | Şuandahul və Durdukka şəhərlərində üsyan | İranzunun Assuriyadan kömək istəməsi |
| 5 | Ahşerinin hakimiyyəti dövründə Mannanın güclənməsi | İskitlər ilə dostluq münasibətlərinin pozulması |

57.Uyğunluğu müəyyən edin:
1. Varaz Qriqor
2. I Şapur
3. II Vaçe
a. Dzirav döyüşündə Sasanilər ilə müttəfiq idi
b. Özünü Bizans imperatoru İraklinin vassalı elan etmişdi
c. III əsrdə hakimiyyətdə idi
d. Zərdüştilikdən imtina edərək Sasani hakimiyyətindən çıxmışdı

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam1 Kaspi

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

Əhəməni dövlətinin süqutu yaxınlaşdıqca satraplar mərkəzi hakimiyyətdən üz döndərib tabe olmamağa çalışırdılar. Mərkəzi hakimiyyətin böhran keçirdiyi zaman ondan üz döndərən satraplardan biri də Qərbi Midiya olmuşdur. Bu satraplığın hakimi görkəmli sərkərdə olan Atropat idi. O, Əhəmənilərin son şahı dövründə Kiçik Midiyanın hakimi idi. Son şahın hakimiyyət başına keçməsi Filippin başçılığı ilə yunan əyalətlərinin Makedoniya ətrafında birləşdirilməsi dövrünə təsadüf etmiş və beləliklə, Makedoniya İranın ən güclü rəqibi olmuşdu. Diodorun göstərdiyinə görə Əhəməni şahı Filipp ilə müharibə etməyə hazırlaşırdı. Bu mənada ki, o, müharibəni Makedoniya ərazisində aparmaq istəyirdi. Lakin Filippin ölməsinin və onun oğlu İskəndərin taxta çıxmasını eşitdikdə, Makedoniya tərəfdən rahat oldu. Çünki heç güman etmirdi ki, İskəndər İrana təhlükə törədə bilsin.

58.Tarixi biliklərinizə əsasən mənbədə bəhs olunan iki imperiya arasında baş vermiş döyüşlərin adlarını qeyd edin: (üç döyüş)

59.Mənbədə bəhs olunan görkəmli Kiçik Midiya şahının İskəndər qarşısında mövqeyinin möhkəmlənməsinə səbəb olan iki cəhəti qeyd edin:

60.Filippin ölümündən sonra yeni hökmdarın taxta çıxmasının Əhəmənilər üçün nəticəsini müəyyən edin:

## Ədəbiyyat

61. Qəzəl janrı haqda doğru ***olmayan*** fikri müəyyənləşdirin.
A) Aşiqanə şeir janrıdır.
B) Klassik şeirin əsas janrıdır.
C) Əsasən, məhəbbət mövzusunda yazılır.
D) İlk beyti məqtə, son beyti mətlə adlanır.
E) Qəzəl birinci beytdən sonra qitə kimi qafiyələnir.

62. Əruz vəzni haqqında doğru, heca vəzni haqqında isə ***yanlış*** fikir verilmiş bəndi müəyyən edin.

| | Əruz vəzni | Heca vəzni |
|---|---|---|
| A) | "Avesta"da olan şeirlər bu vəzndədir. | Milli şeir ölçüsüdür. |
| B) | Ən az işlənən bəhri rəcəzdir. | Vahid bölgü prinsipi hər zaman gözlənilir. |
| C) | Elm aləminə 19 bəhri məlumdur. | Barmaq vəzni də adlandırılır. |
| D) | Ahəng vurğu və intonasiya ilə formalaşır. | Klassik şeir bu vəzndə qələmə alınır. |
| E) | Uzun və qısa hecaların bir-birini izləməsi əsas götürülür. | Aşıq şeiri yanlız bu vəzndə qələmə alınır. |

63. Komediya janrı ilə bağlı cədvəldə uyğun ***olmayan*** fikirləri müəyyən edin.

| ***Doğru*** | ***Yanlış*** |
|---|---|
| 1. Dramatik növün əsası bu janr ilə qoyulmuşdur.<br>2. Tərbiyəvi əhəmiyyət daşıyan gülüşə yalnız komediyada rast gəlinir. | 3. Komediyada yer alan yumor və satira başqa əsərlər üçün də səciyyəvidir.<br>4. İlk nümunəsinin müəllifi məlum deyil. |

A) 1, 2 B) 2, 4 C) 1,3 D) 2, 3 E) 1, 4

64. Müəllif klassik üslubda şeir yazmaq qərarına gəlir. Aşağıdakılardan hansı fikrin müəllifin yazdığı şeirə xas olmadığını dəqiq deyə bilərik?
A) Əruz vəznində olması
B) Daxili qafiyəyə yer verilməsi
C) Bütöv söz prinsipinin gözlənilməsi
D) Bəndlər şəklində olması
E) Beytlər şəklində olması

65. Hansı dairələrin yeri dəyişdirilsə, uyğunluq bərpa olunar?




A) 1-3 B) 3-4 C) 2-3 D) 4-5 E) 1-4

66. Sxemdəki boş xanaya hansı fikir yazıla bilər?




A) Qəhrəmanın ölümü və ya arzularının puç olması ilə nəticələnir.
B) Komik və faciəvi hallar özünü göstərir.
C) Həyatı əksetdirmə üsulu qəzəl janrı ilə eynidir.
D) Müəllif bəzən hadisələrə birbaşa müdaxilə edə bilir.
E) İlk nümunəsi XX əsrdə yaranmışdır.

67. Lirik növlə bağlı doğru ***olmayan*** fikri müəyyən edin.
A) Əsas əlaməti müəllifin hiss-həyəcanlarının ifadəsidir.
B) Lirik qəhrəmanla şairin şəxsiyyətini eyniləşdirmək olmaz.
C) Lirik əsərlər məzmunca, əsasən, iki qrupa bölünür.
D) Lirik əsərləri tərənnümsüz düşünmək mümkünsüzdür.
E) Yığcam, emosional xarakter daşıyır.

68. Klasteri tamamlayın.




A) Şairin təxəllüsü göstərilmir.
B) İctimai və əxlaqi-fəlsəfi məzmun daşıyır.
C) "Parça" , "Hissə" deməkdir.
D) Həcmcə kiçik olur.
E) Qafiyə quruluşu qəzəllə eynidir.

69. Nümunə ilə bağlı doğru fikri müəyyən edin.
*Görürsənmi oğrun baxan gözəli,*
*Tərlan kimi necə cilvələnibdi?!*
*Öz nurundan xəlq eyləyib ilahi,*
*Gözləri qüdrətdən sürmələnibdi.*
A) Misradaxili bölgüsü bütün misralarda eyni deyil.
B) İctimai mövzudadır.
C) Aid olduğu vəznin əsas tələbi uzun və qısa hecaların bir-birini izləməsidir.
D) Qoşmanın son bəndidir.
E) Cinas qafiyə işlənib.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
t.me/BirlikTeam1_kaspi

70. ***Uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| A) | Şifahi xalq ədəbiyyatında poema, yazılı ədəbiyyatda isə dastan epik-lirik növün janrıdır. | ***Doğru*** |
| B) | İri həcmli nəzm əsəri poema adlanır. | ***Doğru*** |
| C) | Dram əsərləri daha çox nəzmlə yazılır. | ***Yanlış*** |
| D) | Nəzmlə yazılan dram əsərlərinə mənsur dram deyilir. | ***Yanlış*** |
| E) | Dialoq iki və daha artıq adamın söhbətinə deyilir. | ***Doğru*** |

71. Faciə janrı ilə bağlı ***yanlış*** fikri müəyyən.
A) Faciənin nəzmlə yazılan növü mənzum faciə adlanır.
B) Faciə qəhrəmanlarının xüsusi məqsədləri, istək və arzuları olur.
C) Tarixi mövzuda da faciələr vardır.
D) Faciə əsasən qəhrəmanın ölümü və ya arzularının puç olması ilə yekunlaşır.
E) Faciə qəhrəmanı qarşılaşdığı ictimai qüvvədən daha güclü olur.

72. Hansı anlayışla bağlı xüsusiyyət ***verilməyib***?
● Əsərdə danışılacaq hadisənin yaranması və inkişafı üçün hazırlıq hissəsidir.
● Əsərdə hadisələrin bir-biri ilə əlaqələndirilməsidir.
● Xalq həyatının geniş epik təsvirini verən romandır.
● Əxlaqi-tərbiyəvi səciyyə daşıyır.
A) Təmsil B) Ekspozisiya
C) Süjet D) Epopeya
E) Kompozisiya

73. Nümunənin janrını və misradaxili bölgüsünü müəyyən edin.
*Təzə aşnalıqla köhnə dostluğun*
*Fərqi var qış ilə yaz arasında.*
*Namərddə qaydadı: kəsər basdığın,*
*Hər kəs hesab çəksin öz arasında.*
A) qoşma, 6+5 B) gəraylı, 4+4
C) qoşma, 4+4+3 D) qəzəl, 5+6
E) təcnis, 3+4+4

74. Eyler-Venn diaqramına əsasən müqayisə edib doğru fikirləri müəyyən edin
I. *Əbrü-çeşmim dolub istər, a yağa,*
*Alışdım eşqindən, yandım, ay ağa.*
*Xəstə canım, sənəm, saldın ayağa.*
*Elədin zülfünlə, ay əsir, əsir.*

II. *Gəl, ey mehri-məhəbbətim,*
*Üzün məndən niyə döndü?*
*Ağzı şəkər, ləbi qəndim,*
*Üzün məndən niyə döndü?*




1. Misradaxili bölgüsü 4+4 şəklindədir.
2. Qoşmanın son bəndidir.
3. Heca vəznindədir.
4. Gəraylının birinci bəndidir.
5. Cinas qafiyə işlənmişdir.
A) I- 1,5 II- 2 III- 3
B) I- 5 II- 1,4 III- 3
C) I- 2,3 II- 5 III- 1, 4
D) I- 4,5 II- 1, 2 III-3
E) I- 2 II- 1,4 III- 5

75. Rübai ilə bağlı doğru fikri müəyyən edin.
A) Cəmi beş misradan ibarət olur.
B) Milli vəzndə qələmə alınır.
C) Daha çox ictimai və əxlaqi-fəlsəfi məzmun daşıyır.
D) Rəməl bəhrində yazılır.
E) İlk rübaini M.Gəncəvi yazmışdır.

76. Dramatik növlə bağlı doğru ***olmayan*** fikri müəyyən edin.
A) Üç əsas janrı vardır.
B) Dramatik növdə yazılan bütün əsərlər pyes də adlandırılır.
C) Şifahi xalq ədəbiyyatının da dramatik növü var.
D) Dramatik əsərlərin qəhrəmanı müsbət və ya mənfi ola bilər.
E) Dramatik əsərlərdə təhkiyə də olur.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
TheBirlikTeam1 Kaspi

77. Doğru fikri müəyyən edin.
A) Bütün cinas qafiyələr omonimlər hesabına yaranır.
B) Misraların sonunda qafiyədən sonra gələn və təkrar olunan sözlər təkrir adlanır.
C) Epik əsərlərdə təsvir üsulundan istifadə olunmur.
D) Həcmcə hekayədən böyük olan nəsr əsəri roman adlanır.
E) Klassik şeir janrlarından olan qitə beytlər şəklində olur.

78. Qafiyə haqqında ***yanlış*** fikri müəyyən edin.
A) Fonetik tərkibcə həmahəng olan və şeirə xüsusi gözəllik verən sözlərə qafiyə deyilir.
B) Qafiyə təşkil edən sözlər, adətən, misranın sonunda olur.
C) Qafiyə təşkil edən sözlər müxtəlif nitq hissəsinə aid ola bilməz.
D) Qafiyələnən sözlər şeirin məzmunu və quruluşu ilə bağlı olur.
E) Qafiyə misranın yadda qalmasını asanlaşdırır.

79. Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| A) Şeirin rədifi onun qafiyə quruluşuna uyğun gəlmir. | ***doğru*** |
| B) Hekayə janrının gözlənilməz nəticə ilə bitən növünə novella deyilir. | ***doğru*** |
| C) Romanda hadisələr çoxşaxəli olur və bir neçə xətlə inkişaf edir. | ***yanlış*** |
| D) Misrada fikir, adətən, tam ifadə olunur. | ***doğru*** |
| E) Nəmlə yazılan hekayələrə mənzum hekayə deyilir. | ***yanlış*** |

80. Bənd haqqında doğru fikirləri müəyyən edin:
1. Hər bənddə ən az 2 misra olur, Azərbaycan poeziyasında isə adətən, hər bənddə 4-5 misra olur.
2. Şifahi xalq ədəbiyyatında bayatı, ağı, qoşma, gəraylı, təcnis janrları beşlik şəklindədir.
3. Şeirlərdəki bəndləri bir-birindən əlaqəsiz təsvir etmək olmaz.
4. Bəndlər müəyyən bitkin hissələrdən ibarət olur və bir-birini tamamlayır.
5. Aşıq ədəbiyyatında bəndlərlə verilmiş şeirlərdə müəllif öz adını və ya təxəllüsünü verə bilər.
A) 1,3,4 B) 1,4,5 C) 3,4,5
D) 2,3,5 E) 2,3,4

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam1 Kaspi

81. Boş xanalara uyğun fikri müəyyən edin.




A) Gəraylı - Hər misrada 8 heca olur.
B) Tuyuq - Əruz vəznində yazılır.
C) Məsnəvi - Klassik üslubda yazılır.
D) Qoşma - Hər misrada 11 heca olur.
E) Qəzəl – Bəndlər şəklində olur.

82. Həyatı əksetdirmə üsulları ilə bağlı doğru fikri müəyyən edin.
A) Təhkiyənin rəvayət şəkli nağıl və dastanlar üçün daha səciyyəvidir.
B) Tərənnüm üsulunda şairin əşya və ya hadisəyə obyektiv fikri öz əksini tapır.
C) Təsvir də tərənnüm kimi, əsasən, lirik növdə öz əksini tapır.
D) Tərənnüm həm müsbət, həm də mənfi düşüncələrdə yer alır.
E) Təhkiyə hər üç ədəbi növdə özünü göstərir.

83. Rübai və tuyuq üçün ortaq fikirləri müəyyən edin.
1. Türkdilli xalqlara məxsus şeir janrıdır.
2. İlk nümunələri eyni ədəbi dövrə aiddir.
3. Əruz vəznindədir.
4. Dördlük şəklindədir.
5. İctimai mövzuda yazılmış nümunələri var.

84. Doğru fikirləri müəyyən edin.
1. Dəbdəbəli üsulu ilə seçilən şeir janrıdır.- Qəsidə
2. Poemalarda daha çox istifadə olunur. – Məsnəvi
3. Beşlik şəklindədir.- Mürəbbe
4. İlk beyti qafiyələnmir. –Qəzəl
5. Formasına görə müxtəlif növləri var. – Qəsidə

85. Kompozisiya ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Hadisələrin inkişafı və əsərin quruluşu ilə bağlıdır.
2. Epiloq əsərin sonunda verilən yığcam yekun hissədir.
3. Proloq əsərin əvvəlində verilən hikmətli fikirdir.
4. Peyzaj da kompozisiyanın ünsürlərindəndir.
5. Əsərdə verilən epiqraf hər zaman müəllifin özünə aid olur.

86. Uyğun ***olmayan*** fikirləri müəyyən edin.

| Doğru | Yanlış |
|---|---|
| 1. Bütün təmsillərdə alleqoriyaya rast gəlinir.<br>2. Povestin ilk nümunəsi “Çay dəsgahı”dır. | 3. Novella, əsasən, nəzmlə yazılır.<br>4. İki hissəli romanlar dilogiya, üç hissəli romanlar trilogiya adlanır. |

87. Uyğunluğu müəyyən edin.
1. Fəxriyyə
2. Mədhiyyə
3. Minacat
a. Tənqidi məzmun daşıyır.
b. Ulu yaradanın qüdrəti, böyüklüyü və onun ilahi keyfiyyətləri, insan təsəvvüründəki ucalığı tərənnüm olunur.
c. Müqəddəs şəxslərin vəfatı münasibətilə yazılır.
d. Hökmdarın tərifinə həsr olunur.
e. şairin öz qüdrətindən danışır.

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

Bir almanın içində bir qurd vardı, nagəhan,
Külək qopdu, ağacı silkələdi durmadan,
Alma qopub budaqdan düşərək yerə dəydi,
Qurd da düşüb qorxuya əvvəlcə nalə çəkdi.
Sonra gördü sağ qalmış, sakitləşdi bir qədər,
Ahəstə çölə çıxıb saldı ətrafa nəzər.
Qamətini qaldırıb dedi: «Mənəm qəhrəman,
Zərər yetirməz mənə nə bir külək, nə tufan».
Bizim bala qurdcığaz hey döşünə döyürdü,
Qabil şəxsiyyət kimi hey özünü öyürdü.
Deyirdi: «Çox gərəkli varlığam ki, belə mən,
Allah məni qurtardı qəbr içində ölümdən».
Qurda yaxın bir ilbiz sıxılıb daxmasına,
Ətrafı seyr edirdi, qurd onun baxmasına--
Nəzər salıb fəxr ilə bağırdı: «Ey, bura bax,
Gör mən necə qoçağam». O, bir az da qalxaraq,
Alma üstə dikəldi, dedi: «Minarəyəm mən,
Yaxın gəl, ta sayəmdə qorunasan küləkdən».
Lakin ilbiz sıxıldı etibarlı qınına,
Dinməyib altdan-altdan baxdı heyrətlə ona.
Birdən külək başqa bir güclə əsdi, çoxaldı,
Ağacdan yer üstünə böyük bir alma saldı.
Alma düşdü dosdoğru məğrur qurdun başına.
Bu qoçağı döndərdi dərhal xəmir aşına.
Hava sakitləşəndə ilbiz çıxdı yuvadan,
Gördü əzilmiş səfeh, təkəbbürlü pəhlivan.
İlbiz ahəstə dedi: «Budur şöhrətin sonu,
Yersiz öyünmək; qurur məhv etdi axır onu».
İnanın bu ilbizə, bir hikmət söyləyim mən,
Öz yurduna sığınmaq yeydir sarsaq ölümdən.

88. Nümunənin aid olduğu növü müəyyən edərək 3 xüsusiyyətini qeyd edin.

89. Nümunənin aid olduğu janrı hekayə janrı ilə müqayisə edin.




90. Qurd və ilbizi müqayisə edin.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam1 Kaspi